**Korrupsiya ilə mğbarizə sahəsində nüvbəti mərhələ**

Son illər ölkədə korrupsiyaya qarşı mübarizə sahəsində mühim işlər görülüb. Bu işlərin növbəti mərhələsi olaraq ölkə başçısı «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nı təsdiq edib. Fəaliyyət Planı korrupsiyaya qarşı mübarizə üzrə qanunvericilik bazasının təkmilləşdirilməsinə, ərizə və şikayətlərə baxılması işinin təkmilləşdirilməsinə, korrupsiya halları haqqında məlumat verən şəxslərin müdafiəsinə dair qanun layihəsinin və korrupsiya ilə bağlı müraciət, ərizə və şikayətlərə baxılması qaydalarının təkmilləşdirilməsinə dair təkliflərin hazırlanmasına imkan yaradır.
Proqram, eyni zamanda, dövlət qurumlarının rəhbərləri tərəfindən mütəmadi olaraq vətəndaşların birbaşa, o cümlədən səyyar qəbulunun təşkilinə, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın fəaliyyətinin təkmilləşdirilməsinə səbəb olacaq. Eyni zamanda, Fəaliyyət Planı korrupsiyanın səviyyəsinin öyrənilməsi məqsədi ilə ixtisaslaşdırılmış tədqiqatların və rəy sorğularının keçirilməsini, korrupsiya ilə əlaqədar cinayətlər barədə vahid informasiya bazasının fəaliyyətinin təkmilləşdirilməsini, dövlət qulluqçularının peşəkarlığının artırılmasını, habelə digər məsələləri özündə ehtiva edir. Fəaliyyət Planında mərkəzi və yerli icra hakimiyyəti orqanlarına dövlət qurumlarının rəhbərləri tərəfindən mütəmadi olaraq vətəndaşların birbaşa, o cümlədən səyyar qəbulunun təşkili, ərizə və şikayətlərin elektron qaydada qəbulu, rəsmi cavablandırılması işinin təkmilləşdirilməsi və digər məsələlər tapşırılıb.
Fəaliyyət Planında Baş Prokurorluğa korrupsiya ilə əlaqədar cinayətlər barədə vahid informasiya bazasının fəaliyyətinin təkmilləşdirilməsi həvalə olunub və bu proses 2013-2014-cü illəri əhatə etməlidir. Sənəddə, həmçinin, nağdsız ödənişlərin həcminin artırılması istiqamətində görülən işlərin davamı olaraq bir sıra əlavə tədbirlər nəzərdə tutulub. Belə ki, proqramla Nazirlər Kabinetinə, Vergilər Nazirliyinə və Mərkəzi Banka bütün sahələrdə nağd hesablaşmaların həcminin azaldılması, nağdsız hesablaşmaların isə həcminin artırılması üçün tədbirlərin görülməsi tapşırılıb. Verilən tapşırığın icra müddəti 2013-2014-cü illəri əhatə etməlidir.
Etik davranış qaydalarının təkmilləşdirilməsi məsələsi də Fəaliyyət Planınında yer alan məsələlərdəndir. Burada dövlət qulluqçuları üçün etik davranış məsələləri üzrə mütəmadi tədris kurslarının və treninqlərin təşkili, etik davranış məsələləri üzrə illik hesabatların hazırlanaraq Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi və ictimaiyyətə açıqlanması nəzərdə tutulub. Həmçinin, etik davranış qaydalarının pozulması ilə bağlı daxil olmuş şikayətlərin effektiv araşdırılması mexanizmlərinin müəyyənləşdirilməsi, dövlət orqanlarının internet saytlarında etik məsələlər üzrə xüsusi bölmənin yaradılması vacibliyi əksini tapıb.
Əmək və sosial təminat sahəsində idarəetmə mexanizminin təkmilləşdirilməsi məqsədilə də Fəaliyyət Planında xüsusi bənd var.
Bu bənddə qeyri-formal məşğulluğun qarşısının alınması və «kölgə iqtisadiyyatına» cəlb olunmuş işçilərin sosial hüquqlarının təmini məqsədi ilə onların əmək fəaliyyətinin leqallaşdırılması üzrə tədbirlərin görülməsi, sosial yardım proqramları, sosial xidmətlər göstərilməsi, sosial və işsizlik müavinətləri üzrə daxil olan şikayətlərə baxılması işinin təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi məsələləri yer alıb. Eləcə də korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq və regional təşkilatlarla qarşılıqlı fəaliyyət, müxtəlif beynəlxalq proqram və layihələrdə iştirak, habelə bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə qarşılıqlı əməkdaşlığın davam etdirilməsi, korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın inkişaf etdirilməsi, Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrasına vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi tapşırılıb.
Sözügedən Fəaliyyət Planında Vergilər Nazirliyinə həvalə edilən digər vəzifələr də var. Belə ki, Fəaliyyət Planının 13.3-cü bəndində məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı mexanizmlərin müəyyənləşdirilməsi üçün tədbirlər görülməsinin icrası Vergilər Nazirliyi və Auditorlar Palatasına tapşırılıb. Fəaliyyət Planının 17-ci bəndi isə vergi nəzarəti və yoxlamalarının səmərəliliyinin artırılmasını əhatə edir. Sözügedən bənddə vergi auditinin seçim prosesinin avtomatlaşdırılması, seçim standartlarının hazırlanması (2013-2014), kameral və səyyar vergi yoxlamalarının həyata keçirilməsi üçün standart göstəricilər sisteminin və proqram təminatının

işlənib hazırlanması (2013-2014), vergi ödəyicilərinin zəruri məlumatlarla təmin edilməsi və vergi ödəyiciləri arasında təbliğat işinin təkmilləşdirilməsi (2012-2013), Vergi Məcəlləsi üzrə korrupsiyaya şərait yaradan hallar üzrə risk təhlilinin aparılması (2013-2014), vergi bəyannamələrinin təqdim edilmə dövriliyinin azaldılması ilə bağlı təkliflərin verilməsi (2013) tapşırıqları yer alıb.
Fəaliyyət Planının 26.3-cü bəndində isə beynəlxalq Anti-korrupsiya Akademiyası ilə əməkdaşlığın genişləndirilməsi, birgə təhsil və tədris layihələrinin həyata keçirilməsi məsələsi qeyd edilib. Bu tapşırığın icrası (2013-2015-ci illər) Vergilər Nazirliyinə və Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Komissiyasına həvalə edilib.
Korrupsiyaya qarşı mübarizə ilə bağlı maarifləndirmə məqsədilə isə Fəaliyyət Planının icrası üzrə tədbirlərin yerinə yetirilməsi vəziyyətinin hər il üzrə dəyərləndirilməsi və ictimaiyyətə açıqlanması, dövlət orqanları tərəfindən öz fəaliyyətlərində korrupsiyaya qarşı mübarizə ilə əlaqədar televiziya və radio proqramlarında xüsusi verilişlərin və debatların təşkil edilməsi tapşırılıb.

Aytən NƏBİYEVA